## VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNƏ, TƏKLİF, ƏRİZƏ VƏ ŞİKAYƏTLƏRİNƏ BAXILMASI, KARGÜZARLIĞIN APARILMASI VƏ XİDMƏTİ SƏNƏDLƏRLƏ İŞİN TƏŞKİLİ

Təhsil Nazirliyinin Ümumi şöbəsi Nazirliyin aparatında kargüzarlıq işinin təşkilini, maddi-texniki bazanın yaradılması və təkmilləşdirilməsini, Nazirliyin dəftərxana ləvazimatı, mebel, kompyuter və digər avadanlıqlar ilə təchizatını təmin edir. Təchizat işləri üzrə müvafiq idarə, müəssisə və təşkilatlarla bağlanmış müqavilələr üzrə şərtlərin, xidmət və öhdəliklərin icraçı təşkilatlar tərəfindən yerinə yetirilməsinə nəzarət edir, yerinə yetirilmiş işləri və xidmətləri qəbul edir. İnzibati binanın cari və əsaslı təmirini, binanın içməli su, dayanıqlı elektrik enerjisi və telefon rabitəsi ilə fasiləsiz təchiz edilməsini, binanın daxili və binaətrafı sahələrinin vaxtlı-vaxtında təmizlənməsi və müvafiq orqanlarla birlikdə sanitar-epidemioloji tədbirlərin həyata keçirilməsini təşkil edir, təhlükəsizlik və yanğın təhlükəsizliyi texnikasının tələblərinə əməl olunmasına nəzarət edir və digər cari işləri görür.

Hesabat dövründə əməkdaşların iş şəraitinin yaxşılaşdırılması məqsədi ilə inzibati binanın dördüncü mərtəbəsində 3, üçüncü mərtəbədə 1 və yeməkxanada 1 yeni kondisioner quraşdırılmışdır. Bundan başqa III mərtəbədə akt zalında kondinsionerlərin ventilyatorları, 108-ci otağa aid mərkəzləşdirilmiş kondisionerin kontaktoru, 2-5-ci otağın kondisionerinin fan mühərriki, 213-cü otaqda yerləşən 60000 BTU gücündə kondisionerin kompressoru, AİRFEL 9000 BTU kondisionerinin ana platası dəyişdirilmişdir. 407-ci otaqda və IV mərtəbədə kollegiya zalında kondisionerlərin kanalları dəyişdirilməklə yanaşı, hava filtrləri təmizlənmiş, sinklənmiş polad vərəqlərdən hava kanalları quraşdırılıb izolə edilmişdir. Ehtiyac olan yerlərdə kondisionerlərə freon vurulması təmin edilmişdir. Nazirliyin İKT şəbəkəsinin idarə edilməsi və texniki dəstəklə təmin olunması xidmətinin təşkili məqsədilə "ULTRA Computers" firması ilə müqavilə bağlanmışdır.

Hesabat dövründə 52 fərdi kompyuter dəsti, 2 ədəd noutbuk, 18 ədəd printer, 10 ədəd skaner, 6 ədəd printer+skaner+surətçıxaran, 7 ədəd faks aparatı, 1 ədəd universal daimi yaddaş qurğusu, 13 ədəd sənəd məhvedən, 2 ədəd televizor alınaaq əməkdaşların istifadəsinə verilmişdir. Bundan başqa Nazirlikdə və digər idarə, təşkilat və müəssisələrdə həyata keçirilən tədbirlərin işıqlandırılması, eləcə də elektron arxiv materiallarının toplanmasını təmin etmək məqsədilə aksessuarları ilə birlikdə Nikon D4 peşəkar fotoaparatı alınmışdır.

Monitorinq və qiymətləndirmə şöbəsində çap qurğusunun təmiri həyata keçirilmiş və zəruri kartriclərlə təchiz edilmişdir.

Binanın su təchizatının yaxşılaşdırılması məqsədilə zirzəmidə 10 tonluq su çəni və CHV-4-80 hidraforlu su nasosları quraşdırılmışdır. II mərtəbədə sanitar qovşağı təmir edilmişdir. Kommunal təsərrüfat və kommunikasiya vasitələrinin (telefon rabitəsi, su, qaz, elektrik enerjisi ilə təchizat) fasiləsiz işi təmin olunmuş, müntəzəm olaraq məişət tullantılarının daşınması və zərərsizləşdirilməsi həyata keçirilmişdir.

Binanın elekrtik enerjisi ilə fasiləsiz təchizatına xidmət edən Teksan 230KVA markalı generatorun yerləşdiyi əraziyə mühafizə çəpərinin çəkilməsi üçün zəruri sənədləşdirmə işləri başa çatdırılmışdır.

Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin müvafiq qurumunda layihə-smeta sənədləri və ehtimal olunan işin dəyəri qiymətləndirildikdən sonra inzibati binanın dam örtüyünün yararsız hala düşmüş hissələri, su novalçalarının bir hissəsi dəyişdirilmiş, binada cari təmir işləri görülmüşdür. Belə ki, bəzi xidməti iş otaqlarında zəruri təmir işləri görülmüş, yeni mal-material anbarı yaradılmışdır. İnzibati binanın fasadı bərpa

edilmiş və rənglənmişdir. Bu işlər görülərkən dövlət vəsaitinə xeyli qənaət edilmiş və ehtimal olunan qiymətlərdən aşağı məbləğlərlə müqavilələr bağlanmışdır.

2008-ci ildə inzibati binanın qızdırılması məqsədilə tikilib istifadəyə verilmiş qazanxananın vaxtilə müvafiq layihə-smeta sənədləri hazırlanmamışdır. Beləliklə, hüquqi əsas olmadığı üçün “Azəriqaz” İB qazanxananın qazlaşdırılmasının texniki şərtini verməmişdir. Azərbaycan Respublikasında Dövlət Neft Şirkəti tərəfindən tətbiq olunan Sistem Analizi və Proqramlaşdırma (SAP) proqramının tələblərinə zidd olaraq layihə-smeta sənədləri və qaz kəmərlərinin istismara qəbulu aktı olmamışdır.

Qeyd edilən səbəblərə görə cari ilin qızdırılma mövsümündə müvafiq təşkilatlar qaz verilişi barədə müqavilə bağlanmasından imtina etmişlər və qaz təchizatında fasilələr olmuşdur.

Bu problemlərin aradan qaldırılması məqsədilə tərtib edilən texniki şərt və inzibati binanın sxemi layihə-smeta sənədlərinin hazırlanması üçün “Azəriqaz” İstehsalat Birliyinin Layihə-konstruktor Bürosuna göndərilmiş və həmin işin görülməsi üçün onunla müqavilə bağlanmışdır. Hazırlanan layihə-smeta sənədləri “Azəriqaz” İstehsalat Birliyi, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarət Agentliyi və Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi Dövlət Qaz Nəzarəti İdarəsi ilə razılaşdırılmışdır.

Əvvəllər istismarda olan qaz sayğacının müəyyən edilmiş standartlara uyğun olmadığı üçün Nərimanov Rayon Qaz İstismarı idarəsinin yazılı tələbinə əsasən qazanxana üçün yeni G-65 markalı, yeməkxana üçün isə yeni G-4 markalı qaz sayğacı alınmış və Azərbaycan Dövlət Neft Şirkətinin İnformasiya Texnologiyaları və Rabitə İdarəsində Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin 2007-ci ildə təsdiq etdiyi qiymətlərlə tərtib edilmiş smeta əsasında görülmüş işin dəyəri ödənilməklə yoxlamadan keçirilərək quraşdırılmışdır.

Nazirliyin inzibati binasında hazırda istismarda olan qaz xətlərinin tətbiq olunan standartlara uyğun gəlmədiyi səbəbindən yeni kommunikasiya xətlərinin çəkilişi və avadanlığın qurqşdırılması üçün “Azəriqaz” İstehsalat Birliyinin Layihə-konstruktor Bürosu tərəfindən tərtib olumuş lokal smeta razılaşdırmaq üçün Fövqəladə Hallar Nazirliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinə və satınalma prosedurunun keçirilməsi məqsədilə işlərin ehtimal olunan dəyərini müəyyənləşdirmək üçün həmin nazirliyin Tikintidə Qiymət Mərkəzinə rəsmi müraciət olunmuşdur.

Büdcə ilinin sonu olduğuna görə qeyd edilən işlərin görülməsinə dair təkliflərin məhdudluğunu (FHN-nin xüsusi lisenziyası əsasında fəaliyyət göstərən müəssisələr) nəzərə alaraq həmin işlərin görülməsinin birbaşa müqavilə əsasında həyata keçirilməsinə razılıq verilməsi barədə Dövlət Satınalmaları üzrə Agentliyə müraciət edilmişdir.

Bütün şöbələrin müasir kompüter avadanlığına, zəruri dəftərxana ləvazimatı, blanklara olan ehtiyacı vaxtlı vaxtında ödənilmişdir. Rabitə xidməti daha da yaxşılaşmış, əlavə şəhər telefon nömrələri açılmışdır.

Yeni işə qəbul olunmuş əməkdaşlar üçün iş otaqları ayrılmış, onlar işçi masaları, fərdi kompyuterlər, İP telefonlar və binaya giriş-çıxış kartları ilə təmin edilmişlər.

Müstəqillik illərində ilk dəfə olaraq “Təhsil qanunvericiliyinə dair normativ hüquqi sənədlər toplusu” ikicildliyi hazırlanmış və 200 nüsxə çap edilərək əməkdaşlara paylanmışdır.

2000 ədəd “Əmək veteranı” vəsiqəsi hazırlanmış, 400 ədəd “Azərbaycan Respublikası Təhsil Nazirliyinin telefon məlumat kitabçası” isə çap olunaraq əməkdaşlara və tabe təşkilatlara verilmişdir.

İl ərzində Nazirliyin kollegiya iclasları və digər böyük tədbirlər şöbənin texniki dəstəyi ilə keçirilmişdir. Xüsusilə də həm miqyasına, həm də vaxt tutumuna görə ən böyük tədbirlərdən

olan “Ən yaxşı müəllim” və “Ən yaxşı ümumtəhsil müəssisəsi” müsabiqələrinin yekun turu Ümumi şöbənin texniki təminatı ilə keçirilmişdr.

“Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikasi Prezidentinin 6 iyun 2007-ci il tarixli, 586 nömrəli Fərmanının tələblərinə müvafiq olaraq, dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadəsinin təmin edilməsi məqsədi ilə Nazirliyin balansında olan 8 kompyuter dəsti, 1 ədəd printer əvəzsiz olaraq tabelikdə olan təşkilatların balansına verilmişdir.

Əlavə olaraq inzibati binanın təmizliyi, səliqə-sahmanın saxlanması, kommunal xidmətlər, gündəlik cari işlər aparılmışdır.

Vətəndaşların qəbulu otağına müraciət edənlər əməkdaşlar tərəfindən hər gün gün ərzində, şöbə müdirləri tərəfindən hər gün saat 16:00-dan sonra, nazir müavinləri tərəfindən həftədə iki dəfə, nazir tərəfindən həftədə bir dəfə qəbul edilir.

Hesabat dövrü ərzində qəbula gələnlərin sayı cəmi 10214 nəfər təşkil etmişdir. Onlardan 1228 nəfəri müxtəlif şöbələrdə qəbul edilmiş, 8986 nəfərin isə şifahi sorğusu elə qəbul otağında cavablandırılmışdır.

Ümumi şöbədə kargüzarlıq işinə ümumi nəzarət edilmiş, daxil olan ərizə və məktublar haqqında vaxtaşırı hesabat dinlənilmişdir, 2012-ci ildə Nazirlik üzrə 4121 əmr və sərəncam imzalanıb qeydə alınmışdır. O cümlədən əsas fəaliyyət üzrə 2325, şəxsi tərkib üzrə 1361 əmr və 477 sərəncam rəsmiləşdirilmişdir.

Təhsil Nazirliyinə 2012-ci ildə vətəndaşlar tərəfindən 26115 ərizə və şikayət daxil olmuşdur. Onlardan 479-u nəzarətə alınmaqla baxılmışdır. Hesabat dövründə Nazirlikdən yerlərə 11500 məktub göndərilmişdir.